# Mariya Zaxarova: Bakı mənim məmnuniyyətlə gəldiyim yerlərin siyahısına daxildir



Bakı mənim daim böyük məmnuniyyətlə gəldiyim yerlərin siyahısına daxildir.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə "Moskva-Baku" portalı jurnalistinin UEFA Avropa Liqasının Bakıdakı finalının siyasiləşdirilməsi cəhdləri barədə sualını şərh edərkən bildirib.

M.Zaxarova qeyd edib ki, Rusiya XİN idmanın siyasiləşdirilməsinə qarşı çıxır: **"Biz bir tərəfdən idmanda siyasiləşdirmələrə adət etməliyik, digər tərəfdən isə bu, o demək deyil ki, biz bununla razılaşmalıyıq. İdman tədbirlərinin siyasiləşdirilməsi xüsusən də BMT tərəfindən müəyyən edilən sənədlərlə, ölkələrin ikitərəfli, çoxtərəfli razılaşmaları ilə ziddiyyət təşkil edir. İdman ayırmağa deyil, birləşdirməyə yönəldilməlidir".**

Bakıya məmnuniyyətlə gəldiyini bildirən RF XİN-in nümayəndəsi deyib: **"Bakını təhlükəli şəhər adlandıra bilmərəm. Mən bu şəhərə məmnuniyyətlə gəlirəm. Mən Bakıya həm Xarici İşlər Nazirliyinin əməkdaşı kimi getmişəm, eyni zamanda, hansısa qeyri-rəsmi tədbirlərdə də iştirak etmişəm. Azərbaycan paytaxtında son 10 ildə baş verən dəyişikliklər məni heyrətləndirdi və bu barədə daim danışıram. Bakı mənim daim məmnuniyyətlə gəldiyim yerlərin siyahısına daxildir".**

M.Zaxarova, həmçinin Rusiya və Azərbaycanın xarici siyasət idarələri arasındakı sıx əməkdaşlığı da qeyd edib. **"Ötən ilin sonunda Sergey Lavrov Bakıya səfər etdi, bu il Azərbaycanın xarici işlər naziri iki dəfə - aprelin 4-də və 16-da Moskvada oldu. Diplomatlarımız arasında əlaqələr işçi səviyyəsində saxlanılır. Biz sözsüz ki, XİN-lərarası birgə məsləhətləşmələrin keçirilməsi praktikasını davam etdirməyə köklənmişik"**, - deyə M.Zaxarova ölkələrimiz arasında müntəzəm olaraq müxtəlif səviyyəli dialoqların dəstəklənməsini də əlavə edib. **"Bildiyiniz kimi, ölkələrimiz arasında müxtəlif səviyyələrdə və müxtəlif formatlarda müntəzəm siyasi dialoq dəstəklənir. Buraya təkcə ikitərəfli format, beynəlxalq meydanlarda qarşılıqlı fəaliyyət formatları deyil, həm də yüksək səviyyəli Rusiya, Azərbaycan, İran görüşünün formatı da daxildir. Bu formatda iş davam edəcək. Bizim funksional səlahiyyətlərimiz bölüşdürüldüyü üçün ümumi anons verə bilmərəm. Lakin deyə bilərəm ki, bu format fəal şəkildə mövcuddur. Sözsüz ki, fəaliyyətini davam etdirəcək. Gələcək görüşlərin substantiv məzmununun müəyyən edilməsi üçün işlər gedir. İqtisadi əməkdaşlıq üzrə parlamentlərarası komissiya fəal işləyir. Komissiyaya Rusiyanın iqtisadi inkişaf naziri və Azərbaycanın iqtisadiyyat naziri başçılıq edirlər, onların rəhbərlik etdikləri müvafiq qurumlar arasında müntəzəm məsləhətləşmələr aparılır"**, - deyə Zaxarova bəyan edib.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının perspektivləri barədə suala cavab verən XİN-in rəsmi nümayəndəsi bildirib ki, Rusiya XİN **"regionda uzun illər davam edən böhranın nizamlanması istiqamətində işi irəlilətmək üçün əlindən gələni edir".**

# Azərbaycan Mərkəzi Bankı uçot dərəcəsini endirib

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) idarə heyəti uçot dərəcəsinin 8,75 faizdən 8,5 faizə endirilməsi haqqında qərar qəbul edib.




AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bank məlumat yayıb.

Bildirilir ki, faiz dəhlizinin yuxarı həddi 10,5 faiz, aşağı həddi isə 6,5 faiz (uçot dərəcəsinə ±2 faizlik simmetrik diapazonda) səviyyəsində müəyyən olunub.

Bu qərar faktiki inflyasiyanın hədəf diapazonunun (4±2 faiz) mərkəzindən aşağıda olması, inflyasiya gözləntilərinin sabitliyi, xarici mühitin əlverişli qalması və yenilənmiş makroiqtisadi proqnozlar nəzərə alınmaqla qəbul edilib.

## İNFLYASİYA PROSESLƏRİ

İnflyasiya gözlənilən trayektoriyada dəyişir. Bu ilin aprel ayında 12 aylıq inflyasiya hədəf çərçivəsində olmaqla 3,1 faiz təşkil edib. Ərzaq və xidmətlər üzrə qiymət artımı (müvafiq olaraq 3,5 faiz və 3,8 faiz) hədəf intervalında formalaşıb. Qeyri-ərzaq məhsullarının qiymətləri isə 1,4 faiz yüksəlib. May ayında mövsümi amillərin təsiri ilə istehlak səbətində mühüm xüsusi çəkiyə malik ərzaq məhsulların ucuzlaşması müşahidə olunub.

## İNFLYASİYA GÖZLƏNTİLƏRİ

İstehlak qiymətlərinin cari dinamikası və valyuta bazarında tarazlıq inflyasiya gözləntilərini stabil saxlayır. Real sektor monitorinqinin nəticələrinə əsasən son ayda qiymət gözləntiləri ticarət, xidmət və tikinti sektorlarında azalıb, qeyri-neft emal sənayesində dəyişməz qalıb.

Kənd təsərrüfatı məhsulları mövsümi xarakterli amillərin təsiri ilə qarşıdakı bir neçə ayda da ərzaq inflyasiyasına azaldıcı təsir edəcək. Proqnozlar cari ilin sonuna inflyasiyanın hədəf daxilində (4±2 faiz) qalacağını göstərir.

## XARİCİ ŞƏRAİT

Xarici sektorda müsbət meyillər davam etməkdədir. Cari ilin 4 ayında ixrac (malların ixracı) 25,4 faiz, o cümlədən qeyri-neft ixracı 19,9 faiz artıb, ticarət balansında 2,5 milyard dollarlıq müsbət saldo yaranıb.

Profisitli tədiyə balansı şəraitində ölkənin strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 6,2 faiz artaraq 47,5 milyard dollara çatıb.

Beynəlxalq konyunktur Azərbaycan üçün əlverişli olaraq qalır. Neftin qiyməti ilin əvvəlindən 24 faiz yüksəlib.

Dünya ərzaq qiymətləri aprel ayında ötən ilin eyni dövrünə nəzərən 2,2 faiz aşağı düşüb (Mənbə: BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı).

## İQTİSADİ AKTİVLİK

İqtisadi artım pozitiv dinamikasını saxlayır. Bu ilin 4 ayında ötən ilin eyni dövrünə nəzərən real iqtisadi artım 2,1 faiz təşkil edib. Qeyri-neft sektorunda artım 2,1 faiz olub və əsasən ticari sektordan qaynaqlanıb. Real sektorun monitorinqi əsasında hesablanan biznes inam indeksi son ayda qeyri-neft emal və xidmət sektorunda artıb.

İqtisadi artım həm xarici tələb, həm də daxili tələblə dəstəklənir. Yanvar-aprel aylarında ötən ilin müvafiq dövrünə nəzərən pərakəndə əmtəə dövriyyəsinin artım tempi (2,7 faiz) əhali gəlirlərinin artım tempindən (5,5 faiz) geri qalıb. Bu, ev təsərrüfatlarının hələ ki, əhəmiyyətli inflyasiya təzyiqi yaratmayan istehlak davranışı nümayiş etdirdiyini göstərir.

## İNFLYASİYA RİSKLƏRİ

Qısamüddətli dövrdə inflyasiya üzrə risklər balansı tarazlı qiymətləndirilir. Buraya əlverişli beynəlxalq konyunktur, profisitli tədiyə balansı, tarazlı valyuta bazarı, antiinflyasion xarakterli monetar şərait və mövsümi amillər aiddir.

Ortamüddətli perspektiv üzrə risklər balansı mürəkkəbləşməkdədir. Xarici sektor üzrə başlıca qeyri-müəyyənlik qlobal iqtisadi artım perspektivlərinin pisləşməsi, ticarət müharibələrinin yeni dalğası və geosiyasi gərginlik fonunda neftin qiymət dinamikası ilə bağlıdır. Neftin may ayından başlayan ucuzlaşmasının davamlı xarakter alması iqtisadi gözləntilərə neqativ təsir edə bilər. Digər xarici risk mənbəyi dünya ərzaq bazarlarında bahalaşmanın davam etməsi və potensial inflyasiya idxalıdır. Ticarət tərəfdaşı ölkələrinin maliyyə bazarlarında qeyri-sabitlik riski isə nisbətən azalıb ki, bu da qabaqcıl ölkələrdə monetar siyasətin daha da sərtləşməsi gözləntilərinin azalması ilə izah edilir.

Daxili risk amillərinin reallaşması sosial xarakterli fiskal stimullar və maliyyə sektoru ilə bağlı qərarların istehlak bazarına və monetar sektora təsirinin miqyasından asılı olacaq. Son aylarda müşahidə edilən proseslər bu təsirlərin zaman üzrə yayıldığını göstərir. Qeyd olunan faktorların inflyasiyaya ötürücülüyü dərəcəsi tam olaraq ilin sonuna formalaşacaq. Mürəkkəbləşməkdə olan xarici fonda fiskal siyasətin mövcud qaydalar çərçivəsində həyata keçirilməsi, fiskal siyasətlə monetar siyasətin vahid çərçivədə sərt əlaqələndirilməsi dayanıqlı makroiqtisadi sabitliyin baza şərti olaraq qalır.

## MONETAR ŞƏRAİT

May ayının yekunu üzrə manatla pul bazası ilin əvvəlinə nəzərən 6,6 faiz artıb ki, bu da inflyasiya hədəfinə nail olmaq baxımından məqbul səviyyədir. Mərkəzi Bankın sterilizasiya əməliyyatları üzrə qalığın azalması fiskal profisit şəraitində pul bazasını hədəf daxilində tənzimləməklə əlaqədardır.

Aşağı kredit aktivliyi şəraitində bank sisteminin likvidlik mövqeyində irihəcmli struktur profisiti qalmaqdadır. Yanvar-aprel aylarında kredit qoyuluşları 0,1 faiz, o cümlədən hüquqi şəxslər üzrə 2,7 faiz azalıb. Kredit aktivliyinin son illərdə də aşağı düşməsi iqtisadi artıma və məcmu təklifin genişlənməsinə neqativ təsir göstərməklə makroiqtisadi və maliyyə sabitliyinə xələl gətirir. Bu fonda cari ildə bankların xarici investisiya aktivliyi diqqəti cəlb edir.

Faiz dəhlizinin parametrləri barədə növbəti qərarlar faktiki inflyasiyanın proqnozla müqayisəsi, inflyasiya gözləntiləri, xarici mühitin dəyişimi və maliyyə bazarlarının buna reaksiyasından asılı olaraq qəbul olunacaq.

Bu qərar iyunun 7-dən qüvvəyə minir. Mərkəzi Bankın idarə heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı barədə məlumat cari il iyulun 26-da ictimaiyyətə təqdim ediləcək.

AZƏRBAYCAN GƏNCİNİN TRİBUNASI

# Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti gənclərin özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır

***Riyad Rüstəmli:** Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasəti gəncliyin gələcəyə ümidlə və inamla baxmasına imkan verir*

*Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində böyük inkişaf yolu keçib. Belə ki, bütün sahələrin tərəqqisini təmin edən uğurlu siyasətin həyata keçirilməsi, müasir çağırışlara uyğun yeni nəsil islahatların ardıcıl olaraq reallaşdırılması bütövlükdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirib. Həyata keçirilən uğurlu daxili və xarici siyasət güclü və nüfuzlu dövlət kimi tanınan Azərbaycanın qarşısında yeni perspektivlər açıb.*

Şübhəsiz ki, son dövrlərdə Azərbaycanda digər sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də çox mühüm nailiyyətlər əldə edilib. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri çox böyük işlərə imza atır, cəmiyyət həyatında mühüm rol oynayırlar. Hazırda ölkə gəncləri vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsiplərinə, həmçinin tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunurlar. "Yeni Azərbaycan" qəzeti olaraq həyata keçirdiyimiz "Azərbaycan gəncinin tribunası" adlı rubrika da ölkəmizin ictimai-siyasi həyatında, elm, təhsil, iqtisadiyyat, idman sahələrində fəallıqları ilə seçilən gənclərimizin ictimaiyyətə tanıdılması məqsədi daşıyır. Rubrikamızın növbəti qonağı isə Riyad Arif oğlu Rüstəmlidir. Qeyd edək ki, Riyad Rüstəmli 7 avqust 1991-ci ildə Bakı şəhərində anadan olub. 2009-cu ildə Bakı Dövlət Universitetinin Sosiologiya ixtisasına qəbul olub və oranı fərqlənmə diplomu ilə bitirib. 2013-2014-cü illərdə Silahlı Qüvvələrin Xüsusi təyinatlı hərbi hissəsində xidmət etdikdən sonra BDU-nun "Sosial iş" ixtisası üzrə magistr proqramını fərqlənmə diplomu ilə bitirib. 2017-ci ildən Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakültəsinin Politologiya və sosiologiya kafedrasının doktorantıdır.

## TƏLƏBƏLİKDƏN İCTİMAİ FƏALİYYƏTƏ BAŞLAYAN RİYAD RÜSTƏMLİ BİR SIRA BEYNƏLXALQ TƏDBİRLƏRİN İŞTİRAKÇISIDIR

Riyad Rüstəmli hələ universitet illərində ictimai-siyasi proseslərdə fəal gənc kimi özünü sübut edib. Bu fəallığın nəticəsidir ki, 2009-cu ildə Yeni Azərbaycan Partiyasının (YAP) sıralarına qoşulan Riyad hazırda YAP Səbail rayon "Pedaqoqlar" (Azərbaycan Dövlət Pedaqoji Univeristeti) ərazi ilk partiya təşkilatının sədr müavinidir. Qeyd edək ki, o, cari ildə YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib.

R.Rüstəmli ictimai fəaliyyətinin aktiv dövrünə bakalavr təhsilinin 1-ci kursunda başlayıb. Belə ki, həmin dövrdə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) layihələr departamentinin koordinatoru, BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri, eyni zamanda, bir çox yerli və beynəlxalq layihələrin icraçı rəhbəri olub. 2009-2013-cü illərdə BDU-nun "İlin ən yaxşı tələbəsi" müsabiqəsinin qalibi seçilib.

Universitetdə təhsil aldığı müddətdə gənclər sektorunda göstərdiyi aktivliyə görə dəfələrlə YAP-ın, Gənclər və İdman Nazirliyinin, BDU-nun və bir çox digər qurumların rəhbərliyi tərəfindən mükafatlandırılıb. Bundan başqa, həmsöhbətimiz bir sıra beynəlxalq tədbirlərin iştirakçısı kimi də Vətənimizi uğurla təmsil edib. Belə ki, 2010-2013-cü illərdə Gənclər və İdman Nazirliyi tərəfindən "Tələbələr azad sahibkarlıq fəaliyyətində" (SİFE) beynəlxalq proqramı üzrə keçirilmiş respublika çempionatının, o cümlədən 2010-cu ildə Gənclər və İdman Nazirliyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən keçirilən Liderlik məktəbinin qalibi olub. 2010-cu ildə Gürcüstanın Anaklia adasında keçirilən Dünya Gənclərinin Patriot düşərgəsində qızıl medalla mükafatlandırılıb. 2011-ci ildə Gənclər və İdman Nazirliyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən keçirilən MDB gənc liderləri üçün təşkil olunmuş yay məktəbi layihəsinin "Ən yaxşı kapitan" nominasiyanın qalibi olub.



Bununla yanaşı, gənc könüllülər sırasında öz yerini alan Riyad bir könüllü kimi müxtəlif beynəlxalq tədbirlər - "Eurovision-2012" mahnı müsabiqəsi və birinci Avropa Oyunları zamanı fəallığı ilə seçilib. Həmçinin "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrində dəyişikliklər və transformasiyalar. İƏT üzv ölkələrin beyin mərkəzlərinin 3-cü Forumu" təşkilat komitəsinin üzvü olub. O, 2 fevral 2018-ci ildə Gənclər Günü münasibətilə Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov tərəfindən Fəxri fərmanla təltif edilib.

Öz növbəsində, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində (SAM) tədqiqatçı qismində fəaliyyət göstərib. 2013-cü ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində nazirin köməkçi heyətinin üzvü olub. 2016-cı ilin noyabr ayından Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektorunun köməkçisi vəzifəsinə təyin olunub.

## ULU ÖNDƏRİN ƏSASINI QOYDUĞU DÖVLƏT GƏNCLƏR SİYASƏTİ UĞURLA DAVAM ETDİRİLİR

Hazırda R.Rüstəmlinin rəhbərlik etdiyi YAP Səbail rayon təşkilatı Gənclər Birliyi gənclərin intellektual səviyyəsinin artırılması, onlara vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq ideologiyasının aşılanması, milli-mənəvi dəyərlərin mənimsənilməsi, ictimai-siyasi proseslərdə fəal iştirak etmələri üçün ardıcıl layihələr həyata keçirir. Bunlardan ən önəmlisi Ulu Öndər Heydər Əliyevin irsinin araşdırılması, öyrənilməsi və təbliğ edilməsi, həmçinin Prezident, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm islahatlara, ölkəmizin hərtərəfli inkişafına hədəflənmiş fəaliyyətə həsr olunmuş ideoloji işlərin aparılması, gənclərin maarifləndirilməsi üçün həyata keçirilən layihələrdir. Azərbaycanda gənclərə göstərilən dövlət qayğısından danışan həmsöhbətimiz bildirib ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti bir çox ölkələr üçün nümunədir. Ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür, əhəmiyyətli nəticələr əldə olunur.

R.Rüstəmli bildirib ki, hər il 2 fevral - Gənclər Günü Azərbaycan gəncliyi tərəfindən böyük coşqu və ruh yüksəkliyi ilə qeyd edilir: **"Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyev 1997-ci ildə "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd olunur. Sevindirici haldır ki, Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təsis olunub".**

**"Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərin forumlarının keçirilməsi, ölkədə gənclər gününün qeyd olunması, gənclərimizin problemlərinin həllinə yönələn Fərman və sərəncamların verilməsi, onların dövlət quruculuğu prosesinə cəlb edilməsi, müvafiq qanunların qəbulu Azərbaycan gəncliyinin inkişafında müstəsna əhəmiyyət kəsb edib. Bu gün Azərbaycanda bütün məsələlərdə gəncliyin marağı nəzərə alınır və gəncliyin potensialından maksimum dərəcədə istifadə olunur"**, - deyən R.Rüstəmli əlavə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasəti gəncliyin gələcəyə ümidlə və inamla baxmasına imkan verir.

Gəncliyin inkişafı istiqamətində ölkəmizdə mühüm layihələrin həyata keçirildiyini deyən R.Rüstəmli vurğulayıb ki, gənclərin sosial məsələlərinin həllinə diqqətin artırılması, gənclər üçün əmək birjalarının təşkil olunması, işsizliyin aradan qaldırılması üçün müxtəlif layihələrin gerçəkləşdirilməsi, gənclərin sağlam həyat tərzi ilə bağlı sosial proqramların həyata keçirilməsi, sağlam gənc nəslin yetişməsi üçün respublikada idman hərəkatının genişləndirilməsi, yeni nəslin dünyagörüşü, mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin bütün sahələrində fəal iştirakının təmin edilməsi dövlətin bu sahədə siyasətinin başlıca prioritetlərini təşkil edir: **"Bütövlükdə, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən gəncliyin inkişafına yüksək diqqət göstərilir. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə geniş spektrlidir. Bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində iştirak edir".**

**Müşfiqə BAYRAMLI**